

Muzeyin burada tikilməsi təsadüfi deyildir. Belə ki, Mir Cəlal Paşayev Cənubi Azərbaycanda anadan olsa da taleyi onu uşaqlıqdan qədim Gəncə şəhərinə gətirib çıxarmışdır. Yazıçının burada yaşadığı ev də muzeyin qarşısında yerləşir. Muzeydə 150-dək eksponat toplanmışdır.

1918-1919-cu illərdə Gəncə xeyriyyə cəmiyyətinin köməyi ilə orta məktəbə daxil olan Mir Cəlal Paşayev 1924-1928-ci illərdə Gəncə Darülmüəllimində (pedaqoji texnikum) təhsilini davam etdirmişdir. Ekspozisiyanın bu hissəsində ədibin gənclik illərinə aid olan fotoşəkillər verilmişdir. Burada onun 1927-ci ildə darülmüəllimində «Aydın» divar qəzetinin redaksiya heyəti ilə olan fotoşəkli nümayiş etdirilir. Onu da qeyd etmək yerinə düşər ki, ictimai işlərdə fəal çalışan Mir Cəlal Paşayev texkikumun tələbə gənclər təşkilatının, 2 il sonra isə Gəncə tələbə gənclər təşkilatının sədri seçilmişdir. Bu fotoşəkil isə 1928-ci ildə Gəncə Darülmüəllimində müəllim və tələbələr arasında çəkilmişdir. Dərnəklərdə şeir tərcümələri oxuması, müzakirə-



# Mir Cəlal Paşayevin ev-muzeyində

***Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Mir Cəlal Əli oğlu Paşayevin 100 illik yubileyi ərəfəsində ədibin xatirəsinə muzeyin yaradılması şəhər ictimaiyyəti tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanmışdır. Gəncəlilər sənət adamlarımızın xatirəsinin anılmasına böyük diqqət və qayğı göstərən möhtərəm prezidentimiz İlham Əliyevə öz minnətdarlıqlarını bildirirlər.***

lərdə çıxış etməsi gənc yazıçıya öz bacarığına inam yaratmışdır. Mərkəzi mətbuatda dərc olunan ilk yazısı Mayakovskinin «Zərbəçi marşı» olmuşdur. Beləliklə, Gəncə ədəbi mühitinə daxil olan Mir Cəlal «Qızıl qələmlər» cəmiyyətində Həmid Araslı, Əhməd Cəmil, Cahanbaxış, Mikayıl Rzaquluzadə, Səməd Vurğun və b. ilə tanış olur. Burada onun 1929-cu ildə həmkarları ilə birlikdə çəkdirdiyi fotoşəkil verilmişdir.

1926-30-cu illərdə Mir Cəlal Paşayev «Yeni fikir» qəzetində, «Qızıl Gəncə», «İlk addımlar», «Hücum» məcmuələrində tərcümələri ilə yanaşı öz qələm təcrübələrini də çap etdirmişdir. Mir Cəlal Paşayev təyinatla göndərildiyi Gədəbəy 7 illik məktəbində müəllimlik fəaliyyətinə başlayır. 1929-1930-cu illərdə Gəncədə 1 saylı orta məktəbdə direktor vəzifəsində çalışan Mir Cəlal Paşayev 1930-cu ildən etibarən Kazanda Şərq Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsində təhsil alır. 1932-ci ildən Bakıya qayıdan Mir Cəlal Paşayev Azərbaycan Dövlət Elmi Tədqiqat institutunun aspiranturasında təhsilini davam etdirmiş, «Kommunist», «Gənc işçi» qəzetlərində işləmişdir. Bu hissədə onun qələm dostları ilə birlikdə çəkdirdiyi fotoşəkillər verilmişdir.

1932-ci ildə gənc yazıçının «Sağlam yollarda» oçerklər toplusunun nəşri onun yeni yaradıcılıq uğurları qazanmasına ciddi təsir göstərir. 1933-cü ildə SSRİ EA Zaqafqaziya fliah Azərbaycan şöbəsinin ictimai elmlər bölməsinə elmi işçi götürülür. 1935-ci ildə «Boy», «Bostan oğrusu», «Gözün aydın», «Dirilən adam» kitabları kütləvi tirajla buraxılır. . Mir Cəlal Paşayevin əsas hekayə və romanları həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Ədib 1940-cı ildə «Füzulinin poetik xüsusiyyətləri» tədqiqatına görə filologiya elmləri namizədi, 1947-ci ildə isə «Azərbaycanda ədəbi məktəblər (1905-1917)» əsərinə görə filologiya elmləri doktoru adına layiq görülmüşdür. Onun «Azərbaycanda ədəbi məktəblər»i yeni ədəbiyyatşünaslar nəslinin yetişməsində mühüm rol oynamışdır.

Bu hissədə Mir Cəlal, Həmid Araslı, Balaş Azəroğlu ilə Aşqabadda 1958-ci ildə, M.Hüseynzadə, M.Hüseyn, O.Sarıvəlli ilə isə 1959-cu ildə çəkdirdiyi fotoşəkillər verilmişdir.

Mir Cəlal zəngin irs qoyub getmişdir. Elə bir irs ki, öyrənməli, nümunə götürməli, davam və inkişaf etdirməli cəhətləri çoxdur. Elə bir irs ki, onda dərin realizm gücünə malik sosial kəsərli bədii nümunələr, klassik və müasir mənəvi sərvətlərə, ədəbiyyat tarixi və nəzəriyyəsinə dair maraqlı tədqiqlər, məqalələr, fikirlər mövcuddur. Bütün bunlar təsdiq edir ki, Mir Cəlal zəngin miraslı yaradıcı şəxsiyyət kimi milli ədəbiyyatımız, elm və mədəniyyətimiz tarixində yaşamağa layiqdir. O, ad və

şöhrət ardınca qaçmamışdır. Xalqına ürəkdən xidmət etmiş, idealına arxalanaraq təbiətinə uyğun olaraq, sadəlik və təmkinlə işləmiş, yazıb yaratmış və xatirələrdə əbədiləşmişdir. Bu hissədə Mir Cəlal müəllimin yoldaşları ilə tələbələr arasında, Azərbaycan Yazıçılar Birliyində şəkilləri diqqət çəkir.

Bəlkə də, özü uşaqlıq çağlarından ailə məhəbbətindən uzaq düşdüyünə görə, ailə dəyərlərinə, ailə ünsiyyətinə xüsusi münasibət bəsləyirdi. O, yaratdığı əsərlərlə bərabər xüsusi bir həyat məktəbi, ailə məktəbi də yaratmışdı. Şübhəsiz ki, bu işdə Mir Cəlalın ən böyük dayağı onun həyat yoldaşı Püstə xanım olmuşdu. Ədibin incə hisslərini ifadə edən «Gülbəsləyən qız» hekayəsi Püstə xanıma həsr olunmuşdur. . Mir Cəlal Paşayevin həyat yoldaşı Püstə xanımla fotoşəkli verilmişdir.

Zəngin əxlaqi keyfiyyətə malik olan Mir Cəlal illər keçdikcə nəsihətinə, sözünə ehtiyac duyulan ağsaqqala çevrilmişdir. Məhz bu keyfiyyətlərinə görə onun övladları da vətəndaşlıq mövqeyi qazanmışlar. Alim, pedaqoq, diplomat, Dövlət xadimi zirvələrinə yüksələ bilmişlər.

Mir Cəlalın adına layiq olan övladları və nəvələri Azərbaycanı dünyada tanıdır və layiqincə təmsil edirlər.

Mir Cəlal müəllim BDU-nun Azərbaycan ədəbiyyatı kafedrasını böyük elmi-pedaqoji mərkəzə çevirdiyi kimi, görkəmli alim, Milli Aviasiya Akademiyasının rektoru və yaradıcısı, akademik Arif Paşayev də tanınmış təhsil təşkilatçısı kimi bu özünəməxsus və Azərbaycanda kifayət qədər ənənəsi olmayan təhsil ocağının formalaşmasında və peşəkarlaşmasında misilsiz xidmətlər göstərmişdir. Hafiz müəllim uzun müddət ABŞ-da ölkəmizi layiqincə təmsil etmiş və artıq o da diplomatiya sahəsində təhsil ocağının formalaşmasında yorulmadan çalışır.

Mir Cəlal müəllimin kiçik oğlu Aqil müəllim artıq həyatda olmasa da ədəbiyyatımızın, mədəniyyətimizin, idmanımızın təəssübkeşi kimi çox səmərəli fəaliyyət göstərib. Qızları Ədibə xanım tanınmış ədəbiyyatçı, Elmira xanım musiqi müəllimidir. Övladları, nəvələri, nəticələri də Mir Cəlal müəllim tərbiyəsini, Püstə xanım öyüdünü yaşadırlar.

Mir Cəlalın nəvələrindən biri olan Mehriban xanım Əliyeva ictimai-siyasi xadim, fəlsəfə elmləri namizədidir. 1995-ci ildən o, «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün çoxlu işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir.

***2004-cü ildə Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO-nun Xoşməramlı Səfiri seçilmişdir. Mehriban Əliyevanın ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmləndirilməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirməsi onun Mir Cəlal nəslinin layiqli davamçısı olduğunu bir daha sübut edir.***

**İradə İBAYEVA,**
**muzeyin direktoru**
Gəncə şəhəri